# Azərbaycandan ABŞ-a Ticarət Missiyası

## FMI Show Plus Sərgisində
## Azərbaycan Pavilyonu

**4-7 may 2008-ci il**
Mandalay Bay Convention Center
Las Veqas, Nevada, ABŞ

**Təşkilatçı: ABŞ-Azərbaycan Ticarət Palatası (USACC)**
**Rəsmi dəstək: Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi, AZPROMO**

## FMİ Show Plus Sərgisi




***FMİ Show Plus Marketechnics*** **Şimali Amerikada təşkil olunan ən iri yeyinti sənayesi sərgisidir. Hər il bu sərgiyə Şimali Amerikadan və 133 ölkədən nümayəndələr gəlir. FMİ Show Plus sərgisininin ziyarətçiləri pərakəndə və topdan satış üzrə ixtisaslaşmış iri şirkət nümayəndələri, distributorlar, idxalçı və ixracatçılardır. Sərgiyə gəlməkdə onların əsas məqsədi yeni məhsul və xidmətlərlə tanış olmaq, yeni əlaqələr yaradaraq özlərinin biznes imkanlarını genişləndirməkdir.**

*Sərgidə iştirak edən müştərilərin 60%-i nümayiş etdirilmiş məhsulları/xidmətləri növbəti ildə almağı planlaşdırır.*

***Ziyarətçilər:*** Adətən ziyarətçi qismində şirkətlərin prezidentləri, icraçı direktorları, baş əməliyyatçıları, baş maliyyə mütəxəssisləri, vitse-prezidentləri, direktor və menecerləri iştirak edir. Bundan əlavə, burada müştərilərdən tutmuş marketinq mütəxəssisləri və dükan menecerlərinə kimi istənilən şəxslə qarşılaşmaq mümkündür.

***Sərgi iştirakçıları:*** Sərginin iştirakçıları ərzaq məhsulları üzrə topdan və pərakəndə satış sahəsində ixtisaslaşmış yüksək səviyyəli instansiyalarla əlaqə qurmaq niyyətində olan şirkətlərdir. Öz məhsul, xidmət və cihazlarını nümayiş etdirmək və tanıtmaq üçün şirkətlər bu sərgidən əlverişli bir şans kimi istifadə edirlər. Sərgidə ərzaq, qeyri-ərzaq, avadanlıq və texnologiya üzrə ixtisaslaşmış 1000-dən çox şirkət iştirak edir.

## Marketechnics

***FMİ Show Plus*** sərgisinin ***Marketechnics*** hissəsinin əsasını texnologiya nümayişi təşkil edir. Bu sərgi yeyinti və pərakəndə satış texnologiyası üzrə ən mükəmməl sərgidir. Bu sərgi yeyinti sənayesi mütəxəssislərinə imkan verir ki, informasiya texnologiyasında baş verən ən son yeniliklərdən faydalanmaqla əməliyyatın səmərəliliyini artırmaq, maya dəyərini azaltmaq və məhsuldarlığı yüksəltməyin mümkünlüyü haqda məlumat əldə etsinlər.

Marketechnics sərgisində iştirak edərkən, minlərlə pərakəndə satış mütəxəssisləri yeni işıq üzü görmüş müxtəlif növ texnologiyalarını sizə nümayiş etdirəcəkdir. Və bu texnologiyalardan istifadə etməklə, yaxud öz mövcud texnologiyanızın qabiliyyətini təkmilləşdirməklə biznesinizi məhdudlaşdıran amilləri aradan qaldırmaq və beləliklə rəqabətə davam gətirmək imkanlarını araşdırmaq imkanına malik olacaqsınız.

***Sərgiyə gələn əsas alıcı kateqoriyaları:***

- Ərzaq
- İçki
- Əczaçılıq məhsulları
- Ümumi əmtəə
- Ləvazimatlar/Cihazlar, Anbar Avadanlıqları
- Texnologiya/Məlumat Emalı texnologiyası

***Aşağıdakı hər hansı pərakəndə satış mərkəzində Azərbaycan məhsulunu yerləşdirmək imkanı qazanın:***

- Xüsusi mallar mağazaları
- Ümumi mallar mağazaları
- Univermaqlar
- Mini marketlər
- Təbii Mallar Mağazaları
- Müstəqil supermarketlər
- İri ərzaq mağazaları, silsilə supermarketlər

## USACC-nin Ticarət Missiyaları
## FMİ Show Plus Sərgisində Azərbaycan Pavilyonu




ABŞ və Azərbaycan şirkətləri arasında yeni işgüzar əlaqələrin qurulması, əməkdaşlıq imkanlarının yaradılması və Azərbaycan şirkətələrinin ABŞ bazarına daxil olmasına yardım edilməsi məqsədi ilə USACC son illərdə bir neçə yeni biznes yönümlü tədbirlər təşkil etməyə başlamışdır.

Bu tədbirlərdən biri 2006-cı ildən həyata keçirilən **Ticarət Missiyasıdır.** İldə bir dəfə ABŞ şirkətlərindən ibarət Azərbaycana təşkil olunan bu missiyanın məqsədi ABŞ-ın işgüzar adamlarının diqqətini Azərbaycana yönəltmək və Azərbaycanda yeni investisiya imkanları açmağa yardım etməkdir.

Eyni imkanı Azərbaycan şirkətlərinə yaratmaq üçün USACC 2008-ci ildən başlayaraq ABŞ-a Azərbaycan şirkətlərindən ibarət ticarət missiyası təşkil etməyə başlamışdır. Bu çərçivədə ilk tədbir

Azərbaycan şirkətlərinin 2008-ci il 4-8 may tarixində Las Veqasda təşkil olunan Şimali Amerikanın ən iri yeyinti sənayesi sərgisi olan - FMİ Show Plus-da iştirakıdır.

***Beynəlxalq səviyyədə və xarici şirkətlərlə əməkdaşlıq etmək niyyətində olan Azərbaycan şirkətləri üçün bu sərgi əvəzsiz şansdır.*** Öz məhsullarını Şimali Amerikada təşkil olunan ən iri sərgidə nümayiş etdirməklə yanaşı, Azərbaycan şirkətləri hədəf seçdikləri xarici istehsal/emal şirkətləri və bütün ABŞ miqyasında iri şəbəkəyə malik olan dükan/market rəhbərləri ilə birbaşa və rahat ünsiyyət imkanı əldə edəcəkdir. Digər tərəfdən, bura ziyarət edən şirkətlərin əksəriyyəti yeni bazar axtarışında olduğundan və market şəbəkələrinin əksəriyyəti idxal üçün yeni mənbə (təchizatçı) ehtiyacında olduğundan, Azərbaycan Pavilyonu yeni, potensial bazar və təchizatçı kimi cəlbedici nöqtəyə çevrilə bilər.

Bundan əlavə, ***Marketechnics*** sərgisini ziyarət edərək Azərbaycan şirkətləri istehsalatda istifadə olunan son texnologiyadan öz daxili potensialını gücləndirmək və istehsal qabiliyyətini artırmaq üçün yararlana bilər.

## Yüksək səviyyəli tərəfdaşlar sizin axtarışınızdadır

Amerika Birləşmiş Ştatlarının Food Marketing İnstitutunun müstəsna tədbiri olan ***FMİ Show Plus Marketechnics*** sərgisi Şimali Amerikada ərzaq sənayesi sahəsində təşkil olunan ən iri tədbirdir. Qeyd edildiyi kimi, bütün dünyadan pərakəndə və topdan satış sahəsində tanınmış ən güclü mütəxəssislər hər il buraya axışır və əlavə bazarlara daxil olmaq imkanını genişləndirmək, biznesini ön sırada saxlamaq və məşğul istehlakçıların tələblərinə cavab vermək üçün yollar arayır.

FMİ Show plus Marketechnics yüksək səviyyəli tərəfdaşlarla əlaqə yaratmaq üçün Sizin qisminizdə iştirakçılara (nümayişçilərə) böyük imkan yaradır. Potensial tərəfdaşlardan aşağıdakıları nümunə göstərmək olar: ölkə miqyaslı mağaza şəbəkələri, regional şirkətlər, müstəqil işgüzar şəxslər və beynəlxalq şirkətlər.

## Müştərilərlə əlaqə yaradın!

İl ərzində müxtəlif topdan/pərakəndə satıcılar bizneslərində üzləşdikləri çətinlikləri aradan qaldırmaq üçün 7 milyon dəfə FMI Show saytına daxil olur və müxtəlif vasitələr və yollar arayır. **FMİ Show plus Marketechnics** sərgisində iştirak etməklə siz bu vasitələri və yolları təklif edənlərdən biri olursunuz və sizin təklif etdiyiniz məhsullar təfərrüatlı şəkildə hazırlanmış onlayn siyahıya daxil edilir. Bu sərgidən əlavə sizin məhsullarınız üçün yaradılmış əvəzsiz imkandır.

Bu saytın proqramının təşkilatçıları müştərilərə imkan verir ki, sizin internetdə siyahıya əlavə edilmiş məhsul və xidmətlərinizlə tanış olsun, sizin internet saytınızın ünvanını götürsün, Sərgidə sizin stendin yerini hədəfə alsın və stendinizi özünün "baxılmalı" yerlər siyahısına daxil etsin. Bunlar hamsı sizin iştirak xərcinizə daxildir.

## FMİ Sərgisində Azərbaycan Pavilyonu

***<u>Azərbaycan Pavilyonu</u>*** **–** 90 kv. Metrlik bu stend FMİ Sərgi zalının düz mərkəzində yerləşir. Girişə və Krafts Food, Coca-Cola kimi iri ABŞ şirkətlərinə yaxın yerləşən ***Azərbaycan Pavilyonunda*** təqribən 10-12 Azərbaycan şirkəti iştirak edə bilər.




**FMİ Show Plus Ticarət Missiyasının faydaları:**

- Pavilyonda stendin tutulması, stendin hazırlanması və sərgi avadanlıqlarının yerləşdirilməsi;
- Səfər üçün vizanın əldə edilməsinə yardım;
- Aeroportdan hotelə və hoteldən aeroporta nəqliyyatın təşkili;
- İstənilən ulduzlu otelde rezervasiyaya yardım;
- Öz məhsul və xidmətlərinizi Şimali Amerikanın ən iri yeyinti sənayesi sərgisində nümayiş etdirmək imkanı;
- ABŞ miqyaslı şəbəkəyə malik olan *topdan və pərakəndə satış mağazalarının rəhbərləri* ilə birbaşa ünsiyyət imkanı;
- Stend rezerv etməklə, FMİ Show Plus sərgisinin internet səhifəsindəki məhsul və xidmətlər kataloquna əlavə olunmaq imkanı;
- Yeyinti sənayesi üzrə ixtisaslaşmış dünya şörhətli şirkətlərlə əməkdaşlıq yaratmaq imkanı;

- Sərgidə iştirak edən hər hansı nüfuzlu şirkətin rəsmi distributorluğunu əldə etmək imkanı;
- Yeyinti və satış biznesində tətbiq olunan ən son texnologiya və bu texnologiyanın üstünlükləri ilə tanışlıq imkanı;
- Yeyinti sənayesinin təşkilində mövcud olan ən son tendensiyalarla yaxından tanış olmaq imkanı

**Azərbaycan Pavilyonu daxilində şirkətlər üçün yerin ayrılması "İlk müraciət" prinsipi əsasında həyata keçirilir** və aşağıdakı sərgi paketləri (alternativ sərgi paketləri mövcuddur) təklif olunur. Müxtəlif sərgi paketləri əldə etməklə şirkətlər yuxarıda sadalanmış ümumi faydalardan əlavə olaraq müvafiq paketin təklif etdiyi üstünlüklərdən də faydalanacaqdır.

## Sərgi Paketləri

***Qızıl Paket (yalnız 3 ədəd mövcuddur) - 25000 ABŞ Dolları***
Yuxarıda sadalanmış ümumi faydalara əlavə olaraq Qızıl Paket sahibləri **Azərbaycan pavilyonunun baş sponsorları** kimi elan olunacaqlar və Azərbaycan Pavilyonunda **18 kv. metrlik sahə** əldə edəcəklər. Qızıl paket sahiblərinin loqoları FMİ Show Ticarət missiyasının marketinq materiallarında vurulacaqdır və ticarət missiyasının baş sponsorları kimi elan olunacaqlar. Eyni zamanda bu paketə FMİ Show sərgisi zamanı 1 nəfər üçün 7 günlük otel təminatı daxildir.

***Fərdi paket - 9000 ABŞ Dolları***
Yuxarıda sadalanmış ümumi faydalara əlavə olaraq fərdi paket sahibləri Azərbaycan Pavilyonunda **9 kv. metrlik** sahə əldə edəcəkdir**.**

***Ortaq paket (hər ortaq şirkət üçün) - 3500 ABŞ Dolları***
Yuxarıda sadalanmış ümumi faydalara əlavə olaraq ortaq paket sahibləri **üç ortaq şirkət arasında bölünməklə ümumilikdə 9 kv. metrlik** sahə əldə edəcəkdir (buraya stendin hazırlanması və avadanlıqların yerləşdirilməsi daxildir).

Alternativ paket növləri haqqında məlumatı USACC-dən əldə edə bilərsiniz.

## Otel və Səfər Xərcləri

USACC Azərbaycan Pavilyonunun iştirakçıları üçün qrup şəklində güzəştli təkliflər paketi hazırlayacaqdır. Bununla belə, sərgi iştirakçıları fərdi olaraq otel və səfər planlarını hazırlaya bilərlər. Uçuş və otel xərcləri sərgi iştirakçılarının öhdəliyinə daxil olacaqdır.

## ABŞ-Azərbaycan Ticarət Palatası (USACC) Haqqında

Vaşinqton şəhərində yerləşən ABŞ-Azərbaycan Ticarət Palatası (USACC) 1995-ci ildə Azərbaycanın bazar iqtisadiyyatına keçidinə yardım etmək, ABŞ və Azərbaycan arasında iqtisadi əlaqələri inkişaf etdirmək və hər iki ölkənin iş adamları arasında işguzar əlaqələr qurmaq məqsədilə yaradılmışdır.

USACC hər il müxtəlif tədbirlər həyata keçirməklə Azərbaycanın iqtisadi potensialını nümayiş etdirir və beynəlxalq sərmayəçiləri və şirkətləri ölkənin iqtisadi inkişafında iştirak etməyə cəlb edir. Bu tədbirlər sırasına hər iki dövlətin yüksək səviyyəli rəsmiləri, beynəlxalq biznes ictimaiyyətinin nümayəndələri, mötəbər iş adamları və ictimai xadimlərinin iştirakı ilə keçirilən böyük konfranslar, sərgilər, rəsmi qəbullar, seminarlar, mühazirələr və digər tədbirlər daxildir.

USACC aylıq seminar və brifinqlər vasitəsi ilə Azərbaycanda gedən siyasi və iqtisadi proseslər, həmçinin iki ölkə arasındakı əlaqələr haqqında ABŞ ictimaiyyətini məlumatlandırır. Bu icmanın nümayəndələri sırasında Azərbaycanla əlaqədar fəaliyyət göstərən hökumət və ictimai təşkilatları, ABŞ Konqresini, media və qeyri-hökumət təşkilatlarının nümayəndələrini göstərmək olar. Bu tədbirlərdə ABŞ və Azərbaycan hökumət nümayəndələri və iş adamları müxtəlif mövzularda çıxışlar edirlər. USACC-nin bu silsilədən olan ən son tədbiri 6 dekabr 2006-cı il tarixində Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın şərəfinə təşkil olunmuş rəsmi qəbul olmuşdur.

USACC həmçinin Amerika və Azərbaycan iş adamları üçün Azərbaycan haqqında illik "İnvestment Guide" – Azərbaycana İnvestisiya Bələdçisi – jurnalını nəşr edir. Bu jurnal Azərbaycanda hal-hazırda baş verən siyasi və iqtisadi yenilikləri əks etdirən vacib bir nəşrdir. ABŞ və Azərbaycan dövlət rəsmilərinin, iş adamlarının, ziyalıların, tanınmış mütəxəssislərin ölkənin bir çox sahələrini əhatə edən məqalə və təhlilləri bu nəşrdə dərc olunur. Azərbaycanda və Amerikada fəaliyyət göstərən şirkət və təşkilatlar, Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, Amerika və Avropada beynəlxalq institutlar və dövlət idarələri bu nəşrin daimi oxucularıdırlarş

**USACC haqqında daha ətraflı məlumatı www.usacc.org saytından əldə edə bilərsiniz.**

Əlavə məlumat üçün əlaqə saxlayın:

Mahir İskəndər
İcraçı Direktor
Tel: (202) 333 8702
Fax: (202) 333 8703
miskender@usacc.org

**ABŞ-Azərbaycan Ticarət Palatası (USACC)**
**1212 Potomac Street, N.W.**
**Washington, D.C. 20007**
http://www.usacc.org